# CƏFƏR CABBARLI

# ULDUZ

*/ 5 pərdəli faciə /*

QANUN NƏŞRİYYATI

Cəfər Cabbarlının “Ulduz” əsərində gənclərin arzuları və həyatla bağlı ümidləri təsvir olunur. Qəhrəmanların taleyi vasitəsilə sevgi və mənəvi dəyərlər ön plana çıxarılır. Hadisələr gənclərin həyat sınaqları ilə üzləşməsini göstərir. Müəllif cəmiyyətin insan taleyinə təsirini də əks etdirir. Əsər ümid və mənəvi saflıq ideyalarını ifadə edir.

# ULDUZ

*/ 5 pərdəli faciə /*

**İştirak edən şəxslər:**

Ramiz Ulduz Xalid Haris
Əbdürrəhman
Şəmsə
Şüeyb
İzzət paşa
Sənusi
Ənvər
Cinner
Yavər
Bir nəfər zabit Ərəb

Trablisdə türklərlə italyanlar arasında olan hərbi təsvir edir.

## BİRİNCİ PƏRDƏ

İstanbul ətrafında, dağlar arasında bir mağara.
Haris ayaqda, Ulduz isə rahatsız oturmuş.

**Ulduz.** Ah! Neyçün bu Ramiz gəlib çıxmadı? Axşamdan getmişlər, səhərə yaxındır, hələ bu vaxta qədər gəlməmişlər. Allah, görəsən başlarına nə gəldi...

**Haris.** Niyə bitablıq edirsən, gələrlər. Tutaq ki, gəlmədilər, nə etməli?

**Ulduz.** Ox, Haris! Öylə sözü söyləmə. Mənim ürəyim çatlamaq dərəcəsinə gəlir.

**Haris.** Ulduz! Ramiz bir quldurdur. Quldurun diriliyi təhlükə deməkdir. Hər dəqiqəsində bir ölüm qorxusu var. Bu gün deyilsə sabah, o biri gün. Axırda ya vurulacaq, ya tutulacaqdır. Sən ki, bir şey olma-

dan böylə bitablıq göstərirsən, vurulmasın eşidəndə nə edərsən?

**Ulduz.** Özümü öldürərəm! Mənim bütün yaşadığım onun üçün deyilmi? Mən ancaq onun üçün yaşayıram büsbütün. Onsuz bir dəqiqə, nəfəs almaq belə istəmirəm. Ah, hələ də gəlib çıxmadılar. Ya rəbb, sən Ramizi əsirgə! *(Dinləyir.)* Deyəsən bayırdan səs gəlir. Bəlkə gəldilər *(Gedir.)*

**Haris.** Ax! Ulduz, sənin yaşadığın Ramiz üçündür, mənim də yaşadığım sənin üçündür. Niyə Ramiz sənin kimi bir mələyi qucar da, mən yox, niyə? Haris insan deyilmi? Yox, yox! Ulduz mənim olacaq! Mən belə bilirəm ki, Ramiz ya vurulub, ya tutulub ki, bu vaxta qədər gəlmədi. İndi tədbir etməli. Onun üçün də Ulduzu... *(Ulduz üzgün giriyor.)*

**Ulduz.** Allah, niyə bu Ramiz gəlmədi? Heç bu qədər mənzildən ayrıldığı görünməmişdi.

**Haris.** Ulduz, niyə böylə səbirsizlik edirsən? Ramiz və yoldaşları məscidə ibadətə getməyiblər ki, mütləqən gələcəklərini gözləyirsən. Ramiz oğurluğa getmiş. Bəlkə də vurulmuş.

**Ulduz.** Xayır! Ramiz quldurluğa getməmiş, Ramiz məzlumları müdafiəyə getmiş. Bir də "vurul-

muş" sözünü tez-tez deməkdən qəsdin nədir? Məni daha da əzaba salmaqmı istəyirsən? Yoxsa, doğrudan da böylə bir xəbər bilirsən?

**Haris.** Qəsdim səni həmişə, hər şeyə sakit ürəklə baxmağa öyrəşdirməkdir. Yoxsa, böyləliklə, Ramizə bir şey olursa, özünü itirib bəlaya salarsan. Başqa bir Ramizlə yaşamaq mümkün ikən...

**Ulduz.** Bəsdir... Bir də mənim yanımda böylə sözləri söyləmə, anlayırmısan? Ramizə bir şey olursa, mən də özümü öldürərəm.

**Haris.** Bax, Ulduz, mən bunun üçün də deyirəm. Sənə yazığım gəlir. Mən istəyirəm Ramizdən başqa da sən diriliyini fəda edəcək bir nəfərin olduğunu biləsən. Ona bir qəza üz verəndə...

**Ulduz.** Səhv edirsən, çəkil nəzərimdən, iblis! Sən Ramizə, öz yoldaşına xəyanət etmək istəyirsən? Haqq üçün çalışanlara heç bir şey olmaz. Çəkil! Niyə baxırsan gözlərimə? İndi anladım. Sən burada qalmağa layiq deyilsən!

**Haris.** Ulduz, mənim sözlərimi xəyanət sanma. Sən bu dağlar arasında, maneələr içində, mən vətənimdə böyük bir qəbilə rəisi, zəngin bir adamam. Bu incə vücudu...

**Ulduz.** Çəkil! Uzaqlaş deyirəm sənə, alçaq! *(Gedir.)*

**Haris.** Yox, olmadı. Daha burada qalmaq olmaz. Ramiz bilərsə, məni öldürər. Yəqin Ulduz dediklərimi ona deyəcək. Ancaq Ramizin bu qədər gec gəldiyindən vurulmuş bilirəm. Ona görə də söz açdım. Hər halda başlandısa bitməli! *(Bir şey görmüş kimi tələsik getmək istərkən, Əbdürrəhman girir.)*

**Əbdürrəhman.** Haris, buradasan? Niyə bu Ramiz gəlmədi? Qorxuram, bir şey olmasın...

**Haris.** Əbdürrəhman, gəl sənə bir neçə söz deyəcəyəm.

**Əbdürrəhman.** Dinləyirəm.

**Haris.** Əbdürrəhman, sən ərəbsən, deyilmi?

**Əbdürrəhman.** Atam ərəb imiş, özüm də ona oxşar bir şeyəm.

**Haris.** Zarafatı burax, dinlə, sözüm var. Sən ərəbsən, mən də ərəbəm. Burada tək ikimiz, dörd yanımız türklərdir. Onların bir millətdaşını incitdiklərini görürsənsə, kömək edərmisən?

**Əbdürrəhman.** Məzlum kim olursa-olsun müdafiə edərəm.